*Tahir Sadıqov.Kitabxanaların fəaliyyətində müxtəlif istiqamətli innovasiyaların tətbiqi // Elmi əsərlər,2019,№1(8),yanvar-iyun,s.72-79.*

UOT 027.54(075.8)

**Tahir Sadıqov**
*AMEA-nın Məhəmməd Füzuli adınaƏlyazmalar İnstitutu, dissertant*
*Tahir Sadiqov <sadiqov_tahir@mail.ru>*

# KİTABXANALARIN FƏALİYYƏTİNDƏ MÜXTƏLİF İSTİQAMƏTLİ İNNOVASİYALARIN TƏTBİQİ

**Açar sözlər**: *kitabxana fəaliyyəti, e-kitabxanaçılıq, virtual informasiya məkanı, innovativ kitabxanaçılıq, kitabxana layihələri*

*Məqalədə kitabxana-informasiya işinə yeni texnologiyaların tətbiqi kitabxana-informasiya xidmətinin yeni mərhələyə qalxmasından Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında innovasiya fəaliyyıtin bütün istiqamətlərdə o cümlədən kütləvi işlərdə böyük oxucu qrupları ilə həmdə müəyyən oxucu qrupları ilə xidmətdə start götürməsindən bəhs edilir. Kitabxanalarda yeni xidmət ənənəvi xidmətin keyfiyyətinin artırılması ktabxana-biblioqrafiya xidmətin yeni fəaliyyət üsullarının axtarilması bu məqalədə öz əksini tapır.*

Müasir gənclər kitabxanaların etibarlı, təhlükəsiz, komfortlu və yüksək texnologiya ilə təmin olunmuş bir məkan, savadlı kitabxana personalı arzulayır. Muasir texnologiyalar dövründə kitabxanaların pespektivi, inkişafı üçün ən müvəffəqiyyətli yol innovasiya yolunun seçilməsi peşəkar kitabxana cəmiyyəti tərəfindən qəbul edilmişdir. İnnovasiyaların tətbiqi inkişafın əsas elementidir. İnkişaf edən dünyada kitabxanaların yaşaması yalnız yeniliklərdən keçir.

Kitabxana işinə yeni texnologiyanın tətbiqi, kitabxananın kompüterləşdirilməsi prosesi, yeni kitabxana fondu anlayışı, onun formalaşdırıl- masına, sturuktur qruluşuna heç bir dəyişiklik etmədən, əksinə, fondun tərkibinin elektron vasitələrlə təkmilləşməsinə, məzmunca zənginləşməsinə, oxuculara kitabxana-informasiya xidmətinin yeni mərhələyə qalxmasına səbəb olur.[5]

Kitabxana işində innovasiya yeni fəaliyyət üsullarının yaradılmasıdır. İnnovasiya fəaliyyəti həm yeni kitabxana-informasiya məhsulunun alınmasına, həm də yeni effektiv texnologiyanın tətbiqi istiqamətinə yönəlməlidir.

İnnovasiyaların tətbiqinin əsas obyektinə aiddir: oxucu, xidmət və məhsul; kitabxana texnikası; kitabxananın fəaliyyətinin inkişafının təmin edilməsi; sosial bazada dəyişiklik və s. İnnovasiyanın təşkili prosesinin realizə olunması zamanı “menecment”, ”marketinqin” spesifikasını dərindən yiyələnmək tələb olunur.Yeniliyin kitabxananın bütün istiqamətlərində idarə olunma bacarığı bütün kitabxanalar üçün zəruridir.

XXI əsrin kitabxanası, çoxlarının əvvəl düşündüyündən fərqli olaraq, heç də təkcə informasiya mərkəzi deyil. Bugünkü kitabxana, hər şeydən əvvəl, maarifçilik mərkəzi, kitab və mütaliə mərkəzi, mədəni mərkəz, təlim mərkəzidir.[6]

Ötən illərdə Azərbaycan kitabxanalarında kütləvi işlərdə xarakterik olan bəzi çatışmamazlıqlar mövcud olmuşdur. Bir çox hallarda oxucular üşün cəlbedici deyildi, hər yerdə iş ənənəvi xidmətdən istifadə etməklə şablon xarakteri daşıyırdı, bacarıqlı kitabxanaçılar azlıq təşkil edirdi və s.

Artıq müasir dövrdə kütləvi işin yeni formaları yaranmışdır.Professional kitabxana ədəbiyyatında "sosialmədəni fəaliyyət" termini yayılmışdır. Bu təsadüfi deyil. Müasir cəmiyyətin siyasi və sosial xarakterinin dəyişməsi kitabxanaların fəaliyyəti qarşısında yeni məqsəd və vəzifələr qoymuşdur. Kitabxanalar hal-hazırda tam funksional təşkilatlar kimi çıxış edir, mədəni, maarifləndirici və tərbiyə işini kitabxana da yerinə yetirirlər. Kitabxanalar yeni xidmətlər təklif edir, ənənəvi xidmətin keyfiyyətini artırırlar və kitabxana-biblioqrafiya xidmətində yeni fəaliyyət üsulları axtarışındadırlar. Kitabxanaları başqa sosial mədəni müəsisələrdən ayıran əsas cəhət ondan ibarətdir ki, burada təqdim olunan fəaliyyət həm əyləncəli, həm də maarifləndiricidir. Oxuculara təklif olunan kütləvi işlərin əsas növlərinə aiddir: əyani ( kitab sərgiləri, müxtəlif baxışlar,reklam fəaliyyəti); şifahi (icmal,tematik geçələr,distuplar və s.), kompleks ( açıq qapı günləri, kitab dekadaları, tok-şou və s.)

Azərbaycanda kitabxana işinin inkişafı və dünya standartları səviyyəsinə çatdırılması mərhələsinin formalaşdırılmasında C.Cabbarlı adına Cənclər kitabxanası öz layiqli töhfələrini vermişdir. Kitabxanada innovasiya fəaliyyətin bütün istiqamətlərində, o cümlədən kütləvi işdə, həm böyük oxucu qrupları ilə, həm də müəyyən oxucu qrupları ilə xidmətdə 2007-ci ildən start götürmüşdür.

" Azərbaycan Respublikasında İnsan Hüquqlarının müdafiəsinə dair Milli Fəaliyyət Planının təsdiq edilməsinə" dair Sərəncama əsasən C.Cabbarlı adına Respublika Gənclər kitabxanasında 2007-ci il 28 fevral tarixində İctimai Hüquqi İnformasiya Mərkəzi yaradılmışdır.[5]

İctimai Hüquqi İnformasiya Mərkəzinin yaradılmasında əsas məqsəd olaraq aşagıdakılar nəzərdə tutulmuşdur:

- Azərbaycan vətəndaşlarını Rusiya Federasiyasının qanunveriliyinə dair məlumatlandırılmasının təmin etmək;
- Lazım olan məlumatları tez və operativ çatdırmaq;
- Rusiya Qanunvericilik toplusundan yararlana bilən 35 məntəqə üçün metodiki mərkəz rolunu oynamaq.

Mərkəz öz işini aşağıdakı üç proqram əsasında təşkil etdi:

- Rusiya İmperiyasının Qanunlar toplusu
- Hüquqi İnformasiya Sistemi "Rusiya qanunvericilik toplusu" proqramı
- Hüquqi İnformasiya Sistemi "Hüquqi informasiyanın ictimai və dövri nəşrləri elektron variantda" proqramı.

Respublikada bu bazaya daxil olan 35 Hüquqi İnformasiya Məntəqəsi fəaliyyət göstərir.

C. Cabbarlı adına Respublika Gənclər kitabxanası bu məntəqələr üçün metodiki mərkəz rolunu oynayır. Bu məntəqələrin istənilən sorğusu e-mail poçt vasitəsilə cavablandırılır.

Hüquqi biliklərin gənc oxuculr arasında yayılmasında bu mərkəz aparıcı rol oynayır.

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında "Digesta" firması ilə müqavilə də bağlanmışdır. Bu müqavilə əsasında bu mərkəz Azərbaycan Respublikasının Qanunvericilik bazasını əldə etmişdir. Bu bazada 1918-ci ildən 1920-ci ilə qədər Azərbaycan Demokratik Respublikasının normativ aktları, 1920-ci ildən 1991-ci il 18 oktyabra qədər və müasir dövr öz əksini tapmışdır. Mərkəzdə həmçinin müxtəlif hüquq orqanlarının əməkdaşları və kitabxana işçiləri üçün treninq, seminar və məşğələlər təşkil olunur.[6]

2009-cu ildən kitabxananın yenilənmiş saytı (www.ryl.az) oxucuların istifadəsinə verilmişdir və eləcədə kitabxanada 2013-cü ildən respublikada ilk Toplu Kataloq və AZLİBNET Milli Kitabxana-İnformasiya Mərkəzi (www.azlibnet.az) yaradılmışdır. [5]

AZLİBNET - qeyri-kommersiya təşkilatı kimi Mədəniyyət və Turizm Nazirliyinin himayəsi və dəstəyi ilə C.Cabbarlı adına Gənclər Kitabxanasının nəzdində yaradılmışdır. Kompyuter şəbəkəsində Milli Kitabxana-İnformasiya Mərkəzinin yaradılması üzrə işlərə son illərdə başlanılmışdır. Onun prioritet

istiqamətlərindən biri kitabxanalarda elektron informasiya resurslarının yaradılması və onların istifadəçilərə təqdim olunması, eləcə də qlobal informasiya şəbəkələrində kitabxanaların korporativ işinin təşkilidir.[6]

Qeyd etmək lazımdır ki, kitabxanaların fəaliyyətinin müxtəlif istiqamətlərində innovativ formaların tətbiqi kütləvi işlərdə daha geniş inkişaf edir. Kitabxanaçılar yeni metodları, oxuculara yeni kitabxana xidmətlərini çox həvəslə həyata keçirirlər. İnteraktiv xidmət (“inter” birlikdə “act” icra etmək) yəni kitabxanada istifadəçi ilə dialoq rejimində xidmət rejimi tətbiq olunmaqdadır.

Təcrübə göstərir ki, bilikləri insana hazır halda təqdim etdikdə , 50-60 faiz qəbul olunur, interaktiv formada isə, xüsusilə uşaqlarda daha çox effekt verir. Keçirilən tədbirlər daha canlı olur. İnteraktiv oyunlar daha maraqla qarşılanır. Ədəbiyyata aid interaktiv oyunlara misal viktorinaları, səyahətləri, konkurslar ,tanınmış televiziya oyunlarının ssenarisi üzrə (ŞHK) oyunlar, auksionlar, loto oyunları, sorğu-cavablar və s. kiçik oxucuların daha çox maraqlandırır. Belə interaktiv oyunlar uşaqlarda özünətəhsilə, öz bacarıqlarını realizə etməyə, özünü təsdiqə kömək edir. Keçirilən kütləvi tədbirlərin əsas tendesiyalrından biri tədbirlərin dialoq formsında keçirilməsidir.(diskussiyalar, dialoq-icmallar, dialoq-görüşlər)

Müasir cəmiyyətin informasiyalaşması şəxsiyyətin formalaşmasında böyük rol oynayır. Kitabxanalar artıq həm intellektual, həm də asudə vaxtın mədəni mərkəzlərinə çevrilmışlər. Bununla əlaqədar olaraq C.Cabbarlı adına Cənclər kitab-xanasında keçirilən “Kitabxanalarda müasir informasiya texnologiyalarının tətbiqi” (02.05.2016) mövzusunda olan treninqi göstərmək olar. Treninqdə aşağıda göstərilən proqramların öyrədilməsi, tətbiqi haqqında geniş məlumatlar verilmişdir: “Mikrosoft Offise” (Mətni lazım olan formata salmaq, elektron kitabları tərtib etmək, prezentasiyaları hazırlamaq, elektron sənədləri çapa verən zaman kağız formatları, çap rejimləri düzgün seçmək, şəkillərin ölçülərini azaltmaq və ya çoxaltmaq,

skanerdə kağız sənədlər i elektron formata çevirən zaman parametrləri düzgün seçmək və s.); “Fayllar üzrə əməliyyatlar” (Mətn növlü faylları PDF növünə çevirmək, video növlü faylları lazım olan növə çevirmək, tədbirlərin video roliklərini youtube kanalında yerləşdirmək, yerləşdirilən video materialların digər yerlərdə (saytlarda) yayımını etmək, video, audio, data növlü diskləri yaratmaq və faylları köçürmək, Youtube saytında kanalı yaratmaq, Youtube kanalına istifadəçiləri cəlb etmək və s.) ; “Windows 10 əməliyyat sistemi” (Əməliyyat sistemi (ƏS) yenilətmək. (UPDATE). Başlıca əməliyyat sistemi sazlamaq. (BİOS). Sərt diski hissələrə bölmək. (PARTATİTİON). Yaradılmış hissələri format etmək. (FORMATİNG). Əməliyyat sistemini format olunan hissəyə yazmaq və s.) (SETUP) - “Qlobal və lokal şəbəkələr” (Repeater (Təkrarlayıcı). Switch (Çevirici). HOST.) Treninqdə Ağcabədi, Kürdəmir, Qazax, Oğuz, Astara, Şəki, Zərdab, Quba, Qusar, Sabirabad, Göyçay, Hacıqabul, Salyan, Ucar kitabxanalarının əməkdaşları iştirak edirdilər. Treninqin sonuncu günü iştirakçılara sertifikatlar verilmişdir.

İnteraktiv formalardan istifadə etmək gəncləri kitabxanaya daha çox yaxınlaşdırır.Gənc auditoriya formalizmi, reqlamenti neqativ qəbul edir. Kitabxanaçı oxucu ilə işdə vəziyyəti bacarıqla modelləşdirməlidir.

İnteraktiv formalara aid olan və kitabxanalarda müvəffəqiyyətlə həyata keçirilən aksiyaları misal göstərək. Bu aksiyaları 3 növə ayıra bilərik:

- etiraz xarakterli (narkomaniyaya aid)
- xeyriyyə xarakterli (uşaq internat məktəblərində kitab hədiyyəsi günü, qocalar evində oxuculara xidmət, yaşlı oxuculara evdə kitab hədiyyə etmək və s.)
- kitabı və oxu mədəniyyətinin inkişafına kömək məqsədi ilə keçirilən aksiya.

C.Cabbarlı adına Respublika Cənclər kitabxanası M. Müşfiq adına bağda “Gənclər mütaliə edir” mövzusunda keçirdiyi aksiyada əsas məqsəd müasir Azərbaycan gənclərini kitab və kitabxanaya cəlb etmək, onları asudə vaxtlarından səmərəli istifadə etmək, narkomaniya, cinayətkarlıqdan uzaq olmaq, onların maariflənməsi, Azərbaycan tarixini, mədəniyyətini dərindən öyrənmək, gəncləri vətənpərvər ruhda tərbiyə etməkdə kitabın əhəmiyyətini əyani şəkildə göstərməkdir. Aksiyanın yekununda iştirakçılara kitab və jurnallara hədiyyə edilmişdir.

Beynəlxalq Ahıllar günü münasibəti ilə , “Ahıllara və Tənhalara Dəstək” ictimai birliyi ilə birlikdə C.Cabbarlı adına Cənclər kitabxanada “Ahıllara qayğı və diqqət” mövzusunda aksiya kecirilmişdir.

Aksiyada “Carçı nyus” jurnalının baş redaktoru, Respublika Qadınlar Cəmiyyəti Yasamal rayon şöbəsinin sədri Gülnarə Əmirquliyeva, sabiq polis rəisi Sabir Məmmədov, “Ahıllara və Tənhalara Dəstək” ictimai birliyinin sədri Ruhiyyə Məmmədova iştirak etmişdir.

Aksiyalar içərisində oxu mədəniyyətinin inkişafında, kitabxanalara oxucuların cəlb edilməsində fleşmobların böyük əhəmiyyəti var. Bu kütləvi bir tədbirdir. Fleşmobu 2002-ci ildə ABŞ sosioloqu Qovard Reynqoldın (7 iyul 1947) yazdıqı kitabla

əlaqələndirirlər. (Умная толпа: новая социальная революция / Говард Рейнгольд. — Пер. с англ. А. Гарькавого. — М.: ФАИР ПРЕСС, 2006. — 416 с. "Ağıllı izdiham: davam edən sosial inqilab").

Fleşmob qabaqcadan hazırlanmış bir kütləvi aksiyadır.Böyük miqdarda insan qrupu (mobber) ictimai yerdə qəflətən daxil olur,müəyyən dəqiqələr ərzində müəyyən olan senarini yerinə yetirir və tez də dağılışırlar.

C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasının əməkdaşları Novruz bayramı ərəfəsində Yasamal rayonunda keçirilən tədbirdə rəqs fleşmob aksiyası keçirmişlər. Burada kitabxanaçılar müəyyən vaxt ərzində əraziyə daxil olub və məharətlə rəqs etdilər. Bu rəqs fleşmobu bacarıqla keçirıldi və toplanan insan kütləsini heyran etdi və qiqqəti cəlb edə bildi.Sanki balaca bir tamaşa oldu. Burada həm iştirakçı, həm tamaşaçı Novruz bayramı zövqü aldı. Rəqs fleşmobları aeroportda,ticarət mollarında, plyajda təsadüfi tamaşaçı üçün ,yeni oxucu cəlb etmək üçün keçirilə bilər. Fleşbomun prinsipi özünü ifadə etmək, mətbuatda əks olunmamaqdır.

Dünya kitabxana təcrübəsinə müraciət etsək, daha maraqlı fleşmoblara rast gələ bilərik. Nyu-York kütləvi kitabxanasında keçirilən fleşmob maraqlı və yaradıcı olmuşdur. Kitabxanada dolu olan oxu zalına qəflətən kabus, onun ardınca isə kabusu ovlamaq öçün xüsusi silahlanmış ovçular daxil olurlar. Onlar stol və rəflərdə olan məlumat ədəbiyyatlarının arasından keçərək kabusu qovurlar.Bütün bunlar oxucularda əvvəlcə təəccübə, sonra isə gülüşə və alqışlara səbəb olmuşdur.[3]

Göstərmək lazımdır ki, oxucuları cəlb etmək üşün bu ssenaridən vaxtaşırı olaraq istifadə edirlər. Hətta İndiana ştatında Villard şəhərciyində kabus axtarmaq arzusunda olanlar üçün libraryghost.com xüsusi saytı yaradılmışdır.

İnnovasiyalar kitabxananın sərgi fəaliyyətində də özünü göstərir. Sərgilərin dizaynında bütün mümkün olan köməkçi materiallardan istifadə edilir. Sərginin ideyasını açmaq üçün, daha yaradıçı yanaşaraq - müxtəlif nişan, bədii, predmet, dekorativ, təbiət ünsürlərindən istifadə edilir.

Sərgi fəaliyyətində innovasiyaları aşağıdakı parametrlərə görə qiymətləndirilir. Xarakterinə görə təqdim olunan sənədlər həm müasir elektron (SD-ROM,DVD-ROM), həm də ənənəvi (kitab, jurnal, qəzet, not, xəritə) daşıyıcılar ola bilər.

Məhz qeyri-ənənəvi sənəd daşıyıcılar kitabxananın fondunun innovasiya hissəsidir. Həmçinin kitabxanaların sərgi fəaliyyətinə başqa iş formalarının inteqrasiyasını göstərə bilərik. Məsələn, sərgi ekspozisiyası muzey sərgisi ilə birlikdə olanda. Burada predmet və aksesuarlar sərginin mövzusunu daha da cəlbedici edir.Teatr işi ilə əlaqədar olan oxucu sərgi-benefesi keçirildikdə, televiziya ilə əlaqədar olanda kitabların xit-nümayişi, kitab auksionları gəncləri daha çox cəlb edir. Kitabxana mütəxəssisləri sərgiləri 2 yerə ayırırlar: ənənəvi və qeyri-ənənəvi.

Ənənəvi sərgilərə aiddir: yeni daxil olan kitabların sərgisi, mövzu, şəxsi sərgilər,tədris prosesinə kömək sərgiləri və s.

Qeyri-ənənəvi sərgilərdə artıq standart formalardan çıxmağa imkan verilir. Məsələn sərgi – installasiya (ing. "installation"- montaj, quraşdırma.qarışdırılmış),

müasir incəsənət formasıdır. Kitab installasiyası müxtəlif forma və materiallardan hazırlanan kitablardan ibarət kompozisiya məkanıdır.

Qeyri-ənənəvi interaktiv sərgilərə Oyun sərgilərini misal göstərə bilərik.Bu sərgilər özündə oyun elementlərini birləşdirir. Oyun sərgilərinə aiddir: sərgi-viktorina, sərgi-krossvord, sərgi-çaynvord,sərgi-tapmaca, sərgi-müsabiqə,sərgi-disput,sərgi“sorğu-cavab” və s. Belə sərgilər uşaq və gənclərlə işdə daha çox effekt verir.

Kütləvi işlərlə məşğul olan kitabxanaçılar xüsusi profesional səriştələrə malik olmalıdırlar. Bunlara aiddir: bədii məharət; danışıq mədəniyyəti; İzah etmək bacarığı; maraqlı metodiki bacarıq yaratmaq; yaradıcılıq; şəxsi maraq; inandırmaq və təsir etmək bacarığı; xidmət zamanı özünü aparmağın optimal yolunu seçmək; multimediya texnologiyaları ilə işləmək və s.

Burada ixtisasartırma mərkəzləri bazalarının praktiki fəaliyyətini qeyd etmək və möhkəmləndirmək lazımdır. Bununla əlaqədar olaraq Gəncə şəhərində keçirilən “Gənclər-innovasiyalar-kitabxanalar” Azərbaycan-Rusiya elmi-praktik konfransınında Azərbaycan kitabxana cəmiyyətinə yeni təfəkkür tərzini təmin etmək üçün kitabxana işi sahəsində distant təhsil əsasında vahid açıq milli təhsil sisteminin formalaşmasına başlamaq tövsiyə olunmuşdur. Bu sistemin yaradılması kitabxanaçıların hazırlanması üzrə ali məktəb proqramının tədris fənlərinin yeni məzmun kəsb etməsinə və eyni zamanda bütün ölkə üzrə kitabxanaçı-praktiklərin kütləvi şəkildə yenidən hazırlanmasını həyata keçirməyə imkan verəcək. Sistemin elementlərindən biri kitabxanaçıların peşəkar attestasiyası altsistemi ola bilər.[3]

Beynəlxalq kitab sərgilərində bizim kitabxananın təqdim etdiyi elektron daşıyıcılar ziyarətçilər tərəfindən maraqla qarşılanmışdır. C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında müasir kütləvi işlərə aid olan oxucu benefisi (“bénéfice” fransız sözü olub, gəlir, fayda deməkdir) ugurla keçirildi.

Oxucu benefisi kitabxananın ən yaxın köməkçisi, görkəmli alim professor Abuzər Xələfova həsr edilmişdi.Onu kitabxanacılar sevir, qiymətləndirir və bu gün də ondan öyrənir. Professor Abuzər Xələfov öz qiymətli faktoqrafik məlumatlarını həvəslə oxucularla bölüşdü. Onun məlumatları kitabxananın sərgisində oxuculara təqdim olunur.[1]

Bundan başqa C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında İmarət azarkeş qrupu ilə benefis keçirildi. İmarət Azarkeş Qrupu (İAQ) Qarabağ azarkeşlərinin, Qarabağlıların toplandığı quruluş, azarkeş qrupudur. 2009-cu ildən fəaliyyət göstərir.Maraqlı faktlar oxuculara çatdırıldı. Bizim Azarkeş Qrupumuzun adı olan "İmarət" “Qarabağ” futbol klubunun hal-hazırda erməni işğalı altında olan Ağdam şəhərindəki əzəli stadionun adından götürülüb."İmarət" sözünün tarixi hələ Qarabağ xanlığının vaxtına təsadüf edir.Bura Qarabağ xanlarının məskəni olub.Təsadüfi deyil ki,İbraximxəlil xan,Mehdiqulu xan,Xan qızı Natəvan da burda dəfn edilib.

Hal-hazırda C.Cabbarlı adına Respublika Gənclər Kitabxanasında Oxu mədəniyyətinin inkişafı ilə əlaqədar olaraq İnternetdən istifadə, antiviruslarla tanışlıq, daha etibarlı elektron poçt yaratmaq və s. həsr edilmiş kitabxana innovasiya-

sının formalarından biri olan keşinq (əyləncəli oyun) keçirmək də nəzərdə tutulur.

Kitabxana-informasiya fəaliyyətinə innovasiyaların tətbiqi problemi dinamik problemdir və kampaniya xarakteri daşımamalıdır. Əsas xüsusiyyət kitabxana personalının bu innovasiyaların tətbiqinə həmişə hazır olmasıdır.

**Nəticə.** Beləliklə yeniliklər kitabxana fəaliyyətinin hər hansı bir sahəsində, kitabxana işinin istənilən hər hansı bir hissəsində ola bilər. İstənilən yeniliyin əlamətləri - təzəlik (yenilik), dəyişiklik (fərqlilik), nəticə və mütləq bir qaynaq olmalıdır.

Müəllif qeyd edir ki, kitabxana yenilikləri üçün hər hansı digər dəyişiklikləri məhdudlaşdıran bir meyar var: kitabxana işinidə yenilik ancaq kitabxananın funksional vəzifələrinin yerinə yetirməsini yaxşılaşdıran yeniliklər hesab edilə bilər.

Kitabxana yeniləşməsinin(inovasiyasının) vəzifəsi: kitabxananın uzunmüddətli və davamlı inkişafını təmin etmək üçün idarəetmə mexanizmlərinin müəyyən edilməsi və istifadəsidir.

**Ədəbiyyat:**


1. Xələfov A.A. Kitabxana və cəmiyyət : dərslik. - Bakı: Azərnəşr, 2011, 360 s.
2. Гусева Е. Н. Инновации в библиотеках страны: подходы, проблемы, проекты // Библиотечное дело XXI век / Рос. гос. б-ка. – 2010. - № 1 (19). – С.99.
3. Качанова Е. Ю. Инновационная политика: цели, этапы, методы / Е. Ю. Качанова // Библиотека, 2003, № 10.
4. Бражникова С. А. Инновации в библиотеках: теор. и метод.аспекты : [Электронный ресурс] /С.А.Бражникова //Библиография, 2003, № 4, с. 35-47. – Режим доступа: http://www.bgunb.ru, свободный.
5. Sadıqov T.K. C.Cabbarlı adına Respublika Gənclər Kitabxanası: dünəni, bu günü və sabahı : monoqrafiya. – Bakı : Apostroff, 2014, 424 s.
6. Sadıqov T.K. Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanası (Elmi, metodiki və təcrübi fəaliyyətin təhlili) : monoqrafiya. Bakı,"Apostroff", 2015, 272 s.
7. Sadıqov T.K. Milli irsin təbliğində Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasının rolu : Monoqrafiya. Bakı : "ŞƏRQ" Nəşriyyatı , 2016, 168 s.

***Тахир Садыгов***

**ИННОВАЦИИ В РАЗЛИЧНЫХ НАПРАВЛЕНИЯХ ДЕЯТЕЛЬНОСТИ БИБЛИОТЕК**

**Резюме**

Инновации могут быть в любой сфере библиотечной деятельности, на любом участке библиотечной работы. Признаки любой инновации – новизна, изменение, результат и обязательно ресурс.

Автор отмечает, что для библиотечных инноваций существует критерий ограничения от любых других изменений: инновацией в библиотеке может считаться только то, что работает на улучшение выполнения библиотекой своих функциональных обязанностей.

Задача библиотечной инноватики: выявление и использование механизмов управления, позволяющих обеспечить долговременное и устойчивое развитие библиотеки.

**Ключевые слова**: *библиотечная деятельность, электронная библиотека, виртуальное информационное пространство, инновационная библиотека, библиотечные проекты.*

***Tahir Sadiqov***

**INNOVATIONS IN DIFFERENT DIRECTIONS IN THE ACTIVITIES OF LIBRARIES**

**Summary**

Innovations can be in any sphere of library activity, on any part of library work. Signs of any innovation - novelty, change, result and necessarily a resource.

The author notes that for library innovations there is a criterion for limiting any other changes: only that which works to improve the performance of the library by its library can be considered innovation in a library.

The task of library innovation: the identification and use of management mechanisms to ensure the long-term and sustainable development of the library.

**Keywords**: *library activities, electronic library, virtual information space, innovative library, library projects.*

*Redaksiyaya daxil olma tarixi: 08.02.2019*
*Çapa qəbul olunma tarixi: 12.03.2019*

*Filologiya üzrə elmlər doktoru **Aybəniz Əliyeva-Kəngərli** tərəfindən çapa tövsiyə olunmuşdur.*